*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (6) 2024*

**Derleme Makalesi | Review article**
**Geliş tarihi |Received:10.10.2024**
**Kabul tarihi |Accepted:12.12.2024**
**Yayın tarihi |Published:25.12.2024**

**Hacı Qasımlı**

https://orcid.org/0000-0001-8246-1959
*PhD, Baku State University, Faculty of Information and Document Management library information resources management department, Azerbaijan, hacı_qasimli@list.ru*

**Daşqin Məhəmmədli**

https://orcid.org/0000-0002-6875-8091
*Doctor of Philosophy in History, Faculty of Economics and Social Sciences, Baku State University, Azerbaijan, dashqin.muhammedli@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Qasımlı, H. & Məhəmmədli, D. (2024). Biblioqrafik Xidmət Kitabxana-İnformasiya Mərkəzlərində Turizmə Dair Sənəd Axınının Müəyyənləşdirilməsinin Başlıca Komponenti Kimi. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (6), 4718-4726.

# Biblioqrafik Xidmət Kitabxana-İnformasiya Mərkəzlərində Turizmə Dair Sənəd Axınının Müəyyənləşdirilməsinin Başlıca Komponenti Kimi

***Xülasə***

*Biblioqrafik fəaliyyətin elmi nəzəri metodologiyası, əsasən elm və tədqiqat sahələrində istifadə olunan məlumatın toplanması, təhlili və sistemləşdirilməsi ilə əlaqədardır. Bu fəaliyyətin metodologiyası, biblioqrafik məlumatların toplanması və şərh edilməsi prosesini nəzərdə tutur ki, bu da tədqiqatçıların elmi işlərini mövcud ədəbiyyat əsasında daha dərindən anlamağa və öz işlərinin elmi əsaslarını düzgün qurmağa kömək edir. Məqalədə bu aspektdən sistemli şəkildə təhlil aparılmışdır. Biblioqrafik xidmət kitabxanalar və informasiya mərkəzləri tərəfindən təqdim edilən, istifadəçilərə müxtəlif mövzular üzrə məlumat tapmaqda və tədqiqatlarını dəstəkləməkdə kömək edən bir xidmətdir. Bu xidmətin əsas məqsədi, istifadəçilərə onların tədqiqat və məlumat ehtiyaclarına uyğun mənbələri təmin etməkdir.*

***Açar sözlər:*** *Kitabxana, Biblioqrafik Fəaliyyət, Xidmət, Biblioqrafik Xidmət, Metodologiya*

BY NC Creative Commons Licence

# Bibliographic Service as the Main Component of Determining Tourism Workflow in Library and Information Centres

***Abstract***

*The scientific-theoretical methodology of bibliographic activity is mainly concerned with the collection, analysis and systematisation of information used in the fields of science and research. The methodology of this activity includes the process of collecting and interpreting bibliographic information, which helps researchers to gain a deeper understanding of their scientific work based on the available literature and to correctly form the scientific basis of their work. A systematic analysis of this aspect is made in the article. Bibliographic service is a service provided by libraries and information centres that helps users to find information on various topics and support their research. The main purpose of this service is to provide users with resources appropriate to their research and data needs.*

***Keywords:*** *Library, Bibliographic Activity, Service, Bibliographic Service, Methodology*

## Giriş

İnformasiyalaşdırılmış cəmiyyətin inkişafında, respublikada hüquqi dövlətin qurulmasında kitabxanaların əvəzsiz rolu vardır. 1998-ci ildə qəbul olunmuş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir: "Kitabxana-elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, ondan ictimai istifadəni təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur (Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu, 1999). Turizm sahəsində biblioqrafik xidmət, turizm ilə bağlı ədəbiyyatın, mənbələrin və məlumatların toplanması, tərtib edilməsi və istifadəçilərə təqdim edilməsi prosesini əhatə edir. Bu xidmətin məqsədi, turizm sahəsində tədqiqat aparan şəxslərin, tələbələrin və digər maraqlı şəxslərin lazımi resursları asanlıqla tapmalarını təmin etməkdir. Belə xidmətlər həm müvafiq akademik məqalələri, həm də praktiki məlumatları əhatə edə bilər. Yeni kitabxana-informasiya infrastrukturunun yaradılması, kitabxana-biblioqrafiya resurslarının formalaşması, onlardan operativ istifadənin təşkili, istifadəçilərə göstərilən biblioqrafik xidmətin dünya standartları səviyyəsinə çatdırılması hazırda kitabxanaların qarşısında mühüm vəzifələr qoyur. Bu gün informasiya əsrində durmadan artan sənəd kütləsi içərisində dolğun informasiya almaq üçün hər bir oxucu biblioqrafik xidmətə müraciət etməli olur. Kitabxananın bütün imkanlarından səmərəli istifadə edərək, tələbatçıların gündən-günə artan və mürəkkəbləşən informasiya tələbatlarını tam və dəqiq ödəmək üçün kitabxana əməkdaşları biblioqrafik cəhətdən hazırlıqlı olmalı, yeni nəşr edilən ədəbiyyatdan xəbərdar

olmalı, biblioqrafik məlumat mənbələrindən düzgün istifadə etməli, kitabxanaşünaslıq və biblioqrafiya sahəsindəki yenilikləri bilməli və onları öz işində tətbiq etməyi bacarmalıdır. Biblioqrafik xidməti həyata kecirən biblioqraf – biblioqrafik informasiya tələbatçıları ilə davranmağı, onlarda biblioqrafik özunə xidmət səriştəsi tərbiyə etməyi, sorğuları qəbul etməyi, biblioqrafik arayışlar hazırlayıb verməyi, informasiya tələbatçılarına kütləvi və fərqli (differensasiyalı) biblioqrafik xidməti həyata keçirməyi bacarmalıdır. Biblioqrafın bilik, vərdiş və bacarıq kimi keyfiyyətləri sənədlərə əsaslanan informasiya axtarışında əsas amildir.

Bəşəriyyətdə həmişə informasiya tələbatı mövcud olmuş, bu tələbat mürəkkəb tarixi inkişafdan keçərək genişlənmiş, inkişaf etmiş və müasir yetkin səviyyəyə gəlib çatmışdır. Qədim dövrlərdə insanlar arasında informasiya şifahi yolla yayılırdı. İnformasiya yalnız sözlər, şifahi nitq vasitəsi ilə çatdırılır və ötürülürdü. Lakin zaman keçdikcə bu üsulun heç də həmişə səmərəli olmadığı üzə çıxdı. Belə ki, informasiyanın getdikcə artıb çoxalması şifahi yolla ötürülməsində çətinliklər törədir və onun yaddaşlardan silinməsinə səbəb olurdu. Bundan əlavə, bir çox halda hafizədə saxlanılan və ötürülən informasiyanın çox dəqiq olması tələbi meydana çıxırdı. Bu və bir sıra digər tələblər insanları informasiyanı uzun müddət və dəqiq saxlayıb mühafizə edə biləcək, onu nəsildən-nəslə ötürəcək yeni bir vasitə tapmağa vadar edirdi. Beləliklə də, insanlar informasiyanın qeydə alınmasının xüsusi forması olan yazını ixtira etdilər.

XX əsrin 90-cı illərindən başlayaraq yeni informasiya-kommunikasiya texnologiyaları kitabxana-biblioqrafiya proseslərinə nüfuz etməyə başladı və biblioqrafiyaşünaslıq və biblioqrafik fəaliyyət də daxil olmaqla bir çox sahələrin inkişafına səbəb oldu. Bu proses biblioqrafik fəaliyyətin həm ənənəvi, həm də elektron resurs bazasına təsir etdi (Ismayilov & Gasimli, 2022). Cəmiyyətin informasiyalaşdırılması biblioqrafik fəaliyyətin üzərinə mühüm vəzifələr qoyur. Müstəqilliklə əlaqədar olaraq biblioqrafiyaşünaslıq və biblioqrafik fəaliyyət inkişaf dövrünü yaşayır, ölkənin informasiya resurslarının dünya səviyyəsinə qaldırılması və bütövlükdə cəmiyyətin informasiya təminatı kimi qlobal problemlə məşğul olur(Ismayilov, Mahammadli & Khudiyeva, 2022). Biblioqrafiyaşünaslığın və biblioqrafik fəaliyyətin nəzəriyyəsinin və resurs bazasının formalaşmasının müasir problemlərinin kifayət qədər tədqiq olunmaması, sahə üzrə nəzəri bazanın kifayət qədər olmaması, yeni fikirlərin, konsepsiyaların yaradılmasına olan ehtiyac bu sahədə tədqiqat aparmağın vacibliyini aktual edir (Ismayilov & Khalafova, 2022a). Bununla əlaqədar olaraq respublikamızda və xarici ölkələrdə biblioqrafiyaşünaslıq və biblioqrafik fəaliyyətin sistemli öyrənilməsi, onların komponent tərkibinin analizi, optimal inkişafının nəzəri əsaslarının işlənilməsi qarşıda duran mühüm problemlərdəndir.

Qeyd etmək lazımdır ki, professor A. Xələfovun elmi əsərlərində, professor Z. Əliyevin elmi yaradıcılığında Azərbaycanda biblioqrafiyaşünaslığın inkişafı məsələlərinə, sahə üzrə nəzəri fikirlərin və konsepsiyaların inkişafına toxunulsa da, lakin bütövlükdə bu problem xüsusi tədqiqat obyekti olmamışdır. Başqa sözlə, istər biblioqrafiyaşünaslığın nəzəri bazasının formalaşması baxımından, istərsə də müstəqil elm sahəsi üçün zəruri olan mühüm meyarlar baxımından onun əldə etdiyi nailiyyətlərin ümumiləşdirilməsinə ehtiyac vardır. Biblioqrafiyaşünaslıq sahəsində yeni ideyalar, yeni nəzəri fikirlər və konsepsiyalar bu gün də yaranmadadır (Ismayilov & Khalafova, 2022b).

Tədqiqatın obyektini Azərbaycanda və xarici olkələrdə biblioqrafiyaşünaslıq və biblioqrafik fəaliyyət sahəsində mövcud olan nəzəri baza və konsepsiyalar təşkil edir.

**1. Tədqiqatın predmeti**

Biblioqrafiyaşünaslıq və biblioqrafik fəaliyyət sahəsində **A**zərbaycanda və xarici olkələrdə mövcud olan nəzəri baza və konsepsiyaların yaranması, inkişafı, biblioqrafik fəaliyyətdə onun əhəmiyyəti, dövrlə zamanla əlaqədar yeni nəzəriyə və konsepsiyaların yaradılması tendensiyaları təşkil edir.

**2. Problemin işlənməsi səviyyəsi**

Bildiyimiz kimi biblioqrafik fəaliyyət haqqında nəzəri fikirlər və təcrübi fəaliyyət XIX əsrin ikinci yarısından bir sıra cəmiyyət kitabxanalarının yaranması və onlar haqqında informasiya verən çap kataloqlarının nəşr olunmasından sonra, yəni 1886-cı ildən sonra yaranmağa başlamışdır. Biblioqrafiyaşünaslığın elm kimi formalaşması isə Bakı Dövlət Universitetində 1947-ci ildə Filologiya fakültəsi nəzdində Kitabxanaçılıq şöbəsinin açılması ilə mümkün olmuşdur.

**3. Tədqiqatın metodları**

Dissertasiya işinin elmi dövriyyəyə gətirilməsində kompleks metodlardan istifadə edilmişdir. Sahə üzrə sənədlər təhlil edilmiş, bu zaman sistemli yanaşma metodu əsas götürülmüş, xarici ölkə və respublikamızda sahə ilə bağlı olan alimlərin əsərləri öyrənilmiş, tarixi-sosioloji, statistik, biblioqrafik, müqayisəli təhlil, sistemli yanaşma, kitabxana sənədlərinin və kitabxanaların saytlarının monitorinqi metodlarından istifadə edilmişdir. Tədqiqat zamanı araşdırılan problemlərə dair ədəbiyyatın nəzəri təhlilinə, həmçinin uzunmüddətli müşahidələrin nəticələrinə diqqət yetirilmişdir. Bununla yanaşı, tədqiqat aparılan sahə üzrə kitabxanaların elektron kataloqunda və elektron kitabxanasında mövcud sənədlər araşdırılmış, üzə çıxarılmış və müqayisəli təhlil metodu əsasında ümumiləşdirmələr

aparılmışdır. Biblioqrafiyanın ən mühüm, dəyəri intellektual gücü bugünkü kompüter texnologiyasının yaranışına qədər geniş istifadə olunmasındadır. Ona görə də biblioqrafiyanın gələcəyi təbii intellektual potensialdan, inkişafda olan humanitar yaxınlaşmadan asılıdır. Bu gün biz informatika və informatika təfəkkürü erasına qədəm qoyduğumuz bir vaxtda, yəni cəmiyyətin inkişafının nüvəsini elm və informatika təşkil etdiyi bir vaxtda bu yeni təfəkkürün prizmasından biblioqrafiya və biblioqrafiyaşünaslıq elminin, həmçinin elmin dövrümüzdəki nailiyyətlərindən, fəlsəfənin, sosialogiya və başqa elmlərin biblioqrafik xarakteristikasının əsas qarşılıqlı əlaqəsini xüsusi qeyd etmək lazımdır (İsmayılov, Mahammadli & Gasimli, 2023). Cəmiyyətin tələbatına uyğun olaraq müasir biblioqraf yeni fəaliyyət metodları, xidmət növləri axtarır, onları inkişaf etdirir, təcrübədə yaradıcı (kreativ) ideyaları həyata keçirir. Bu işdə tələbatçılara kitabxananın fondunda olan sənədlərlə,yeni yaradılan müxtəlif sənəd və biblioqrafik informasiya resursları ilə mükəmməl kitabxana-biblioqrafiya xidməti göstərmək üçün:

- sorğuların ödənilməsinə yönəlmiş dolğun sənəd fondunu komplektləşdirmək;
- kitabxana fondunu bütünlüklə açan kataloq-kartoteka sistemini (ənənəvi və elektron) yaratmaq, daim yeniləmək və kitabxananın saytı vasitəsi ilə axtarışı təmin etmək;
- soraq-biblioqrafik nəşrlər fondunu komplektləşdirmək və daim yeniləmək;
- müxtəlif mövzulu biblioqrafik vəsaitlər (göstəricilər, bülletenlər, biblioqrafik siyahılar) tərtib etmək;
- tammətnli elektron biblioqrafik sənəd-informasiya resurslarını yaratmaq, mütəmadi olaraq yeniləmək;
- onlayn biblioqrafik sorğuları ödəmək və ədəbiyyatı virtual sifariş etmək, kitabxanada yaradılmış həm tammətnli, həm də biblioqrafik informasiya mənbələrinə girişi təmin etmək;
- soraq-biblioqrafik, biblioqrafik informasiya və sənədlərin elektron çatdırılması xidmətini həyata keçirmək;
- kitabxana-biblioqrafiya proseslərinin kompleks şəkildə avtomatlaşdırılmasına imkan verən kompyuter şəbəkəsini qurmaq və təkmilləşdirmək.

Müasir texnologiyanın, xüsusilə kompüter texnologiyasının biblioqrafik proseslərə tətbiqi MKS-nin soraq biblioqrafiya aparatının məzmununu daha da zənginləşdirir. Fondun həcmindən, kitabxanaların tipindən və profilindən asılı olmayaraq onun soraq və biblioqrafiya aparatının tərkibinə həm ənənəvi, həm də elektron vasitələr daxildir:

- əlifba kataloqu;
- sistemli kataloq;

- elektron kataloq;
- kartotekalar sistemi (ümumi, sistemli, diyarşünaslıq, elektron və s.);
- soraq-biblioqrafik nəşrlər fondu (məlumat kitabları, ensiklopediyalar, metodik və biblioqrafik nəşrlər fondu, ödənilmiş arayışlar fondu və s.) Biblioqrafik fəaliyyətin müasir dövr üçün ən modern nümunəsini Milli Kitabxanada görə bilərik. Burada biblioqrafik fəaliyyət çoxsahəliliyinə görə fərqlənir. Milli Kitabxana respublikamızda ümumi və xüsusi, elmi-köməkçi və tövsiyə xarakterli biblioqrafik nəşrlər çap edir, mədəniyyət, incəsənət, turizm, bədii ədəbiyyat sahələri üzrə cari biblioqrafik informasiya çatdırır, həm ənənəvi, həm də onlayn biblioqrafik sorğu xidmətini həyata keçirir.

Biblioqrafik fəaliyyət artıq təcrübi fəaliyyətdən uzaqlaşıb elmi fəaliyyət sahəsinə çevrilib. Biblioqrafik fəaliyyət artıq çoxdan kitab və hətta sənədlərdən kənara çıxıb. Buna görə də elm adamları, alimlər bu problemə daha fərqli prizmadan baxmağa çalışırlar. Tanınmış rus alimi O. P. Korşunov "biblioqrafiya" terminini "dokumentoqrafiya"("sənədşünaslıq") termini ilə əvəz etməyin mümkünlüyünü irəli sürür. Digər bir rus alimi N. A. Slyadneva terminoloji modernləşməyə, biblioqrafiyaya yeni "informoqrafiya" adını təklif etməklə məsələyə daha başqa cür yanaşır. M. T. Voxrışeva isə hesab edirdi ki, terminlər sırasında "biblioqrafiya"dan və "dokumentoqrafiya"dan ("sənədşünaslıq") daha universal termin "znakoqrafiya", yəni "işarəşünaslıq" olduğunu iddia edir. Azərbaycan alimləri prof. A. Xələfov, prof. Z. Əliyev, dos. N. İsmayılov isə əsrlərin sınağından çıxmış biblioqrafiyanın daha doğru termin olduğunu iddia edirlər (İsmayılov & Məhəmmədli, 2024). Kitabxana-informasiya fəaliyyətinin əsas obyekti informasiya məhsulu və onun əsasında həyata keçirilən informasiya xidmətidir. Fəaliyyətin əsas məzmunu oxucunun biblioqrafik sorğusunu müvəffəqiyyətlə yerinə yetirməkdir. Soraq-biblioqrafiya xidməti tələbatçının sorğusunun qəbul edilməsi və ona lazımi cavabın verilməsini həyata keçirir. Respublikanın ictimai-siyasi və mədəni həyatında baş verən hadisələrə, əlamətdar günlərə, elm, təhsil, mədəniyyət, incəsənət, iqtisadiyyat, texnika, tibb və s. sahələrə aid kitabxanaya daxil olan qəzet və jurnallar araşdırılıb məqlələrin analitik yazılışını və tam mətnini elektron kataloqda yerləşdirməklə analitik məlumat bazaları yaradılır. Bununla da həm çap formasında (cari biblioqrafik nəşrlər), həm də kitabxananın saytı vasitəsilə rəhbər işçilərə, elmi tədqiqatçılara, alim və ziyalılara, müxtəlif sahələrdə çalışan mütəxəssislərə, eləcə də geniş ictimaiyyətə operativ məlumat çatdırılır. Analitik resursların axtarışı elektron kataloq vasitəsilə həyata keçirilir. Nümunə olaraq qeyd edək ki, 2008-ci ilin dekabr ayından Milli Kitabxanada ölkə mətbuatının ayrı-ayrı mövzular və predmetlər üzrə tammətnli analitik məlumat bazasının yaradılması işlərinə başlanılmışdır. Yəni 100-dən çox qəzet və jurnalda dərc

olunan materialların tam elektron mətnləri mövzu və predmetlər üzrə qruplaşdırılaraq Milli Kitabxananın analitik məlumat bazasına daxil edilir. Bununla da kitabxananın oxucuları nəinki dövri mətbuat materiallarının biblioqrafik təsvirlərini, hətta onların tam elektron mətnlərini də kitabxananın saytı və elektron kataloqu vasitəsilə açıb oxuya bilirlər. 2006-cı ildən Analitik məlumat bazasının təşkili şöbəsi yeni cari-biblioqrafik vəsaitin - "Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat"ın nəşrinə başlamış, mədəniyyət sahəsində analitik soraq-informasiya xidmətinin təşkilini təmin etmişdir. Bəşəriyyətdə həmişə informasiya tələbatı mövcud olmuş, bu tələbat mürəkkəb tarixi inkişafdan keçərək genişlənmiş, inkişaf etmiş və müasir yetkin səviyyəyə gəlib çatmışdır. Qədim dövrlərdə insanlar arasında informasiya şifahi yolla yayılırdı. İnformasiya yalnız sözlər, şifahi nitq vasitəsi ilə çatdırılır və ötürülürdü. Lakin zaman keçdikcə bu üsulun heç də həmişə səmərəli olmadığı üzə çıxdı. Belə ki, informasiyanın getdikcə artıb çoxalması şifahi yolla ötürülməsində çətinliklər törədir və onun yaddaşlardan silinməsinə səbəb olurdu. Bundan əlavə, bir çox halda hafizədə saxlanılan və ötürülən informasiyanın çox dəqiq olması tələbi meydana çıxırdı. Bu və bir sıra digər tələblər insanları informasiyanı uzun müddət və dəqiq saxlayıb mühafizə edə biləcək, onu nəsildən-nəslə ötürəcək yeni bir vasitə tapmağa vadar edirdi. Beləliklə də, insanlar informasiyanın qeydə alınmasının xüsusi forması olan yazını ixtira etdilər.

Biblioqrafik fəaliyyətin müxtəlif elmlərlə əlaqəsi çox genişdir, çünki bu fəaliyyət, əsasən, elmi biliklərin toplanması, təhlili və yayılması ilə bağlıdır. Biblioqrafiyanın müxtəlif sahələrdə tətbiqi və onun elmi araşdırmalara təsiri çox böyükdür (Qasımlı & Məhəmmədli, 2024). İnformasiyavermə xidməti ayrı-ayrı şəxslərin, qrupların və ya bütövlükdə cəmiyyətin informasiya tələbatının ödənilməsi üzrə informasiya proseslərinin məcmusundan (sənədlərin toplanması, analitik-sintetik işlənməsi, informasiyanın axtarışı və yayılması) ibarət olan fəaliyyətdir. BİX-in elementləri aşağıdakılardır: informasiyanın istehsalçısı və yayıcısı, alıcısı və informasiyakommunikasiyası üsulları və vasitələri. BİX-in növləri informasiya sorğularının ödənilməsinin differensasiya səviyyəsinə görə fərqlənir: Rəhbər İşçilərə Differensial Xidmət (RİDX), müəyyən qrupa və ya konkret istehlakçıya istiqamətlənən fərdi, kollektiv və kütləvi informasiya xidməti. Bu xidmətin əsasında oxucular kitabxanaya yeni daxil olan kitablar haqqında vaxtlıvaxtında xəbər tutur. Kütləvi BİX-in mühüm formaları: yeni alınan ədəbiyyatın məlumat bülleteni (aylıq və rüblük), yeni ədəbiyyat sərgiləri (mövzu sərgisi, dövri mətbuatda dərc olunmuş məqalələrin nümayişi), xülasələr (yeni nəşrlərin xülasəsi, mövzu xülasələri, diyarşünaslıq fondu və onun ayrı-ayrı hissələri üzrə xülasə-ekskursiya, ən əhəmiyyətli müxtəlif diyarşünaslıq nəşrlərinin xülasəsi) həmçinin kitabxananın təşkil etdiyi "informasiya günündən", "mutəxəssis günlər"indən, "biblioqrafiya günü"ndən və başqa oxşar tədbirlərdən

ibarətdir. Biblioqrafik fəaliyyətin bütün bu elmlərlə əlaqəsi, tədqiqatların doğru və obyektiv şəkildə aparılmasına, mövcud biliklərin sistemləşdirilməsinə və yeni elmi nəticələrin əldə olunmasına imkan yaradır. Elmi fəaliyyətin hər bir sahəsində biblioqrafik işlər, elmi inkişafın əsasını təşkil edir (Mahammadi, 2024). Elektron informasiya resursları ilə elektron biblioqrafik xidmət həyata keçirilir. Yeni keyfiyyətə malik olan elektron informasiya resurslarının toplanması, saxlanması, axtarışı və əldə edilməsi daha rahat və əlverişli olduğundan onlar daha geniş yayılır və istifadə edilir. Elektron resursların bir sıra növləri fərqləndirilir:

- Çap analoqu olmayan elektron resurslar (elektron poçt, internetdəki veb səhifələri, diskussiya qrupları, bir sıra elmi və kütləvi jurnallar, verilənlər bazaları, multimediya materialları və s.);
- Çap formasında mövcud olan sənəd-informasiya resurslarının uzunmüddətli mühafizəsinin təmin edilməsi üçün (məsələn, elektron kitablar, çap edilmiş əsərlərin elektron versiyaları) yaradılan elektron resurslar;
- Çap edilmiş sənəd resursları əsasında yaradılmış, uzun müddət saxlanmaq üçün nəzərdə tutulmayan birdəfəlik elektron resurslar (KAA sistemində istifadə edilmiş materialların nüsxələri, qəbzlər, elektron arayışlar).

Elektron resursların ictimai təyinatına görə aşağıdakı növləri fərqləndirilir: elmi təyinatlı; tədris təyinatlı; asudə vaxt üçün nəzərdə tutulmuş; bədii; elmitexniki informasiya təyinatlı; elan, reklam və təbliğat təyinatlı; elektron kommersiya təyinatlı; istehsalat təyinatlı; texnoloji təyinatlı; maliyyə təyinatlı və s.

**Nəticə**

Müasir dövrdə Biblioqrafiyaşünaslıq və biblioqrafik fəaliyyətin informasiyalaşdırılmış cəmiyyətin tələblərinə uyğun intensiv inkişafı üçün onun nəzəri, metodiki və təşkilati problemlərini bilmək, sahə üzrə istər respublikamızda, istərsə də xarici olkələrdə tanınmış alimlər tərəfindən irəli sürülən konsepsiyaları və nəzəri bazanı öyrənmək, sahənin gələcək konstruktiv inkişaf istiqamətini müəyyən etmək vacibdir. Biblioqrafik xidmətlər, həmçinin istifadəçilərin müəyyən mövzuda sorğularını cavablandırmağa kömək edir, resursların tapılmasını asanlaşdırır və məlumatların düzgün və effektiv şəkildə əldə edilməsinə şərait yaradır. Bu xidmətlər kitabxanalarda, tədqiqat mərkəzlərində və turizm şirkətlərinin məlumat bazalarında mövcud ola bilər. Müasir günümüzdə həm təcrübi fəaliyyət sahəsi kimi, həm də elmi istiqamət kimi biblioqrafiyaşünaslığın və biblioqrafik fəaliyyətin rolu o qədər böyük və ümumbəşəridir ki, insan fəaliyyətinin bütün sahələrini onsuz təsəvvür etmək mümkün deyildir. Bu sahədə qərb olkələri alimləri, rus alimləri ilə yanaşı Azərbaycan alimləri

də mühüm konseptual nəzəri fikirlər irəli sürürlər. Müdafiə olunmuş dissertasiyalarda, yazılan elmi məqalə və monoqrafiyalarda sahənin inkişafı ilə bağlı mühüm nəzəri fikirlər, konsepsiyalar, təkliflər və tövsiyələr irəli sürülür. Beləliklə, turizm sahəsində biblioqrafik xidmətlər yalnız mənbə təminatı ilə məhdudlaşmır, eyni zamanda istifadəçilərin bu resurslardan ən yaxşı şəkildə istifadə etmələri üçün dəstək və rəhbərlik təklif edir. Bu xidmətlər həm akademik tədqiqatları, həm də sektorda fəaliyyət göstərən mütəxəssislərin gündəlik işlərini asanlaşdırır.

**Ədəbiyyat Siyahısı**

Ismayilov, N. I. Mahammadli, D. & Khudiyeva, V. (2022). Methods and Means of Information Search in the Digital Environment. *Grani Journal*, *25* (5), 31-34.

Ismayilov, N. I. & Gasimli, H. (2022). The main activities of the Republic's Tourism Information Centers. *Grani Journal, 25* (6), 16-22.

Ismayilov, N. I. & Khalafova, S. A. (2022a). General Characteristics of Local Lore Documental Network Resources of the Libraries of Azerbaijan (Based on library collection).*Technium Social Sciences Journal*, *33* (1), 628-637.

Ismayilov, N. I. Khalafova, S. A. (2022b). Library Sites that Provide Information to Users (Based on Domestic and Foreign Library Experience).*GRANI Journal*, *25* (2), 22-28.

İsmayılov, N. İ., Mahammadli, D. & Gasimli, H. H. (2023). Organızation, development and current sıtuatıon of the document flow on tourism in the regions (based on the example of the Shakı-Zagatala economıc region). *Scientific and Theoretical Almanac Grani*, *2* (26), 122-127.

İsmayılov, N., & Məhəmmədli, D. (2024). Qərbi Azərbaycan Tarixinə Dair Sənəd Axınının Təşəkkülü və İnkişafı. *Akademik Tarih ve Düşünce Dergisi, 11*(6), 4483-4496.

Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu. (1999).

Mahammadi, D. H. (2024). Issues of Legal, Scientific, Theoretical, Methodological and Practical Significance as an Important Component of the Informatization of the Library Infrastructure of the Republic (Strategy For The Development of Libraries in the Regions of Azerbaijan). *Akademik Tarih ve Düşünce Dergisi*, *11* (1), 611-619.

Qasımlı, H. & Məhəmmədli, D. (2024). Turizm sahəsi üzrə "İnformasiya tələbatı" konsepsiyası. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (6), 4588-4595.